**Poeziya həvəskarlarında maraq doğuracağını nəzərə alaraq Alı Hüseynovun iki şerini oxucuların diqqətinə veririk...**

**● Lalə HACIYEVA**

### Tuğumun

Dözə bilməyirəm mən həsrətinə,
Düşmənin əlində qalan Tuğumun.
Bilmirəm günahı nə olmuşdu, nə?
Alışıb odlara yanan Tuğumun.

Qoymadılar qala daş üstə daşı,
O gecə tapmadı qardaş-qardaşı.
Hər zaman baxırsan dümağdı başı,
Qüssədən gözləri dolan Tuğumun.

Od vurdular, yanıb tamam kül oldu,
Ötdü aylar, neçə-neçə il oldu.
Bu ayrılıq bizə bir nisgil oldu,
Var-yoxu edildi talan Tuğumun.

Üzümüzə bağlanıb yolları,
Başında çox oldu qeyli-qalları.
Alı, yaddan çıxmaz gözəl çağları
İndi əfsanəyə dönən Tuğumun.

### Qaytarağın Qarabağı

Vətən gedib əlimizdən,
Nəğmə düşüb dilimizdən.
Ayrılmışıq elimizdən,
Qaytarağın Qarabağı.

Nərə çəksin Koroğlumuz,
Qarabağadır yolumuz.
Zəfər çalacaq ordumuz,
Qaytarağın Qarabağı.

Əsarətdə qalıb Şuşam,
Qəm-kədərə yoldaşam.
Qılıncımı sıyırmışam,
Qaytarağın Qarabağı.

Səfər edək Xankəndinə,
Alı da çatdı əhdinə.
Xoş günün gəlsin bəxtinə,
Qaytarağın Qarabağı.